AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
AKADEMİK Z.M.BÜNYADOV ADINA
ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

# AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTI ŞUŞA

BAKI – 2022

ISBN: 978-9952-556-42-1

**Azərbaycanın mədəniyyət paytaxtı Şuşa.**
Bakı: Elm, 2022

*© AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2022*



## AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTI ŞUŞA

Şuşa Qarabağın tacı, Azərbaycanın mədəniyyət paytaxtı, qədimiliyi və müasirliyi özündə birləşdirən tarixi şəhərdir.

Qədim və şərəfli tarixə malik Şuşa şəhəri əsrlər boyu mürəkkəb hadisələrin şahidi olmuş və xarici işğalçılara qarşı qəhrəmanlıq mübarizəsi aparmışdır.

Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtı elan edilməsi Pənahəli xanın (1748-1763) adı ilə bağlıdır. Qarabağın qədim tayfalarından olan Cavanşirlər tayfasının Sarıcalı oymağına mənsub olan Pənahəli xan 1748-ci ildə Qarabağ xanlığının əsasını qoymuşdur. Yeni yaranmış Qarabağ xanlığının ilk dövrlərdə möhkəmləndirilmiş paytaxt

şəhəri yox idi. Buna görə də Pənahəli xan paytaxt üçün güclü müdafiə imkanlarına malik olan bir qala tikdirmək qərarına gəldi.

Pənahəli xanın hakimiyyəti dövründə Qarabağ xanlığı ərazisində salınmış ilk qala Bayat qalası olmuşdur [9,126]. Bu qala beş il müddətində Qarabağ xanlığının paytaxtı olmuşdur [9,128]. Ancaq Bayat qalasının yeri strateji cəhətdən bir o qədər də uğurlu deyildi. Beləliklə, Pənahəli xanın göstərişi ilə daha əlverişli mövqeyə malik yeni bir paytaxt-qala – Şahbulaq qalasının (Ağdam yaxınlığındakı Şahbulaq bulağının yaxınlığında) tikintisinə başlanır və onun inşası 1751-1752-ci illərdə başa çatır. Köhnə qala isə xanın göstərişi ilə dağıdılır. Yeni salınmış qalada Pənahəli xan daşdan evlər, imarətlər, məscid, hamam, bazar tikdirir [3,81]. Lakin Şahbulaq qalası da yalnız bir neçə il ərzində müstəqil Qarabağ xanlığının paytaxtı oldu. Qarabağ xanlığına qarşı səngiməyən hücumların qarşısını almaq üçün Pənahəli xan strateji baxımdan daha möhkəm və düşmən hücumlarının müqabilində daha dözümlü olan yeni bir paytaxt-qala tikdirmək məcburiyyətində qaldı. Bunun üçün məşvərət şurası toplayan xan əyanlara müraciət edərək dedi: “Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin.



Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz bir an belə kəsilməməlidir”. Azərbaycanın dəniz səviyyəsindən 1300-1600m. hündürlükdə olan qədim yaşayış məskəni Şuşanın yerləşdiyi əlçatmaz dağ yaylası bütün bu tələblərə tam cavab verirdi.

Beləliklə, azərbaycanlıların qədim yaşayış məskəni olan Şuşa ərazisində Qarabağ xanlarının yeni iqamətgahının tikintisinə başlanıldı. Yeni şəhər-qala mövcud olduğu ilk illərdə öz banisinin adı ilə Pənahabad [4,11], sonralar isə bu yerin qədim adı ilə Şuşa adlandırıldı və Qarabağ xanlığının daimi paytaxtına çevrildi.

"Şuşa" sözünün Azərbaycan – türk dilinə mənsub olması heç bir şəkk-şübhə doğurmur. Bu ad şəhərin salındığı ərazinin relyefinə uyğun olub, qədim türk dilində "yayla", "şiş qaya" mənasını daşıyır. Təsadüfi deyildir ki, bu şəhər xalq arasında "Şişə" adı ilə də tanınır və bir sıra ədəbi əsərlərdə bu şəkildə verilmişdir[7,22].

Şəhərin salındığı ərazinin relyefi onun möhkəm müdafiə qalası kimi inşa olunmasına və memarlığına da çox güclü təsir göstərmişdir. Şuşa şəhərinin salınması üçün nəzərdə tutulan ərazi hərbi-strateji baxımdan böyük əhəmiyyət kəsb edirdi. Üç tərəfdən hündür sıldırım qayalarla əhatə olunmuş qalaya yalnız ərazinin şimal-şərq hissəsindən, bir o qədər də əlverişli olmayan dar bir cığırla qalxmaq olardı.Tarixçi Mirzə Yusif Qarabaği qeyd edir: "Pənah xan bir xoş gündə Şuşa şəhərinin təməlini qoydu. Şəhər cənub-qərbdən, şimal-şərqdən, eyni zamanda da qərb və cənub tərəfdən piyada və qeyriləri üçün gediş-gəlişi mümkün olmayan möhkəm hasar və təbii sıldırım

qayalarla əhatə olunmuşdur. Divar çəkmək üçün şəhərin cənub ərazilərini və şərq tərəfinin bəzi yerlərini ölçdülər. Kənd əhalisi el başçıları ilə bir yerdə çalışaraq beş arşın hündürlüyündə, iki arşın enində bir divar hördülər. Daş və əhənglə bərkidildiyindən bu divardan nə top gülləsi, nə də başqa bir şey keçə bilərdi. Divarda dörd darvaza açdılar. Şimal-şərq tərəfdən olan darvazaya Şuşa kənd darvazası deyilir. İki darvaza isə şimal ilə qərb arasındadır. Bunlardan birinə İrəvan darvazası, digərinə isə Gəncə darvazası və ya Çiləbörd darvazası deyilir. Dördüncü darvaza isə dağılmış və hazırda onun yerinə divar tikilmişdir. İndi şəhərin üç darvazası var" [8,23].

Fransız yazıçısı Jan Gevrin Ağa Məhəmməd şah Qacarın həyat və fəaliyyətinə həsr olunmuş "Xacə şah" adlı tarixi romanında Şuşanın müdafiə qurğuları haqqında çox maraqlı məlumatlar verilir. Müəllif yazır: "Ağa Məhəmməd xan Qacarın dövründə Şuşa kiçik, gözəl şəhərdir, möhkəm hasarının hündürlüyü şəhərin bütün cəhətlərində bərabərdir. Hasarın elə yerləri var idi ki, oradan qalaya hücum edənlərin başına daş, qaynar su və ya ərimiş qurğuşun tökmək olurdu"[4,130].

Pənahəli xanın dövründə inşa olunan qala divarları bir o qədər də möhkəm deyildi. Daimi hücum təhlükəsi xanı qala divarlarını sürətlə və qısa müddətdə inşa etməyə məcbur etmişdi. Onun varisi İbrahimxəlil xan hakimiyyətə gəldikdən

sonra Şuşa qalasının divarlarının yenidən tikilməsini həyata keçirdi [9,162].



İbrahimxəlil xan xanlığın müdafiə qurğularının keyfiyyətinə və möhkəmliyinə xüsusi diqqət yetirmiş və tikinti işlərinə yüksək səviyyəli mütəxəssisləri cəlb etmişdir. O, Şuşanı qədim Azərbaycan memarlıq ənənələri əsasında inşa etmək üçün Təbriz, Ərdəbil və digər şəhərlərdən ustalar gətirtmişdir.

Şuşa qalası salındığı zaman burada xanlıqlar üçün xarakterik olan iç qala mövcud olmamışdır. Hər an gözlənilən düşmən hücumundan ehtiyat edən Pənahəli xan iç qalanı şə-

hərin daha əlverişli yerlərində kiçik qalaları xatırladan imarətlərlə əvəz etməyə məcbur olmuşdu. Qarabağ tarixçisi Mir Mehdi Xəzani Pənahəli xanın oğlu İbrahim üçün tikdirdiyi imarət barəsində yazır: " İbrahim xana yenə bir təpə üstə öz evinə bərabər imarəti-mərqub yapmışdı ki, düşmən qalaya gələn çağda, lazım yerləri mühafizət edə bilsin"[10,231]. Xarici görünüş və quruluş baxımından bu imarətlər bir-birini təkrar edirdi, onların hamısının ətrafına küncləində bürcləri olan qala divarları çəkilmişdi.

Şuşada İç qalanın tikintisi İbrahimxəlil xanın hakimiyyəti dövrünə aiddir. Onun hakimiyyəti dövründə şəhərin Gəncə qapıları yaxınlığında uca bir təpənin üstündə bütün zəruri memarlıq tələblərinə cavab verən İç qala tikildi.Tarixçi M.Baharlı yazır ki, İbrahimxəlil xan hakimiyyət başına gəldikdən sonra düşmən hücumu zamanı özünün, ailəsinin və əmlakının təhlükəsizliyini təmin etmək məqsədilə Xəzinə qalası adlanan yerdə, iki qayanın arasında yeddi və ya səkkiz otaqdan ibarət olan sığınacaq – qəsr tikdirmişdi. Qalanın içərisində divanxana, iki böyük imarət və yardımçı binalar da inşa edilmişdi. Şuşa qalasına gedən yeganə dar yolun üstündə tikilmiş bu qəsr yarımdairəvi bürc və divarlarla əhatə olunmuşdur.Pənahəli xanın dövründə tikilmiş imarətlərdən fərqli olaraq, İbrahimxəlil xanın tikdirdiyi imarətlər bilavasitə müdafiə qurğuları

ilə əhatə olunmamışdır. İç qalaya məxsus müdafiə divarlarının mövcudluğu hər bir imarətin ayrılıqda qala divarları ilə əhatə olunması zərurətini aradan qaldırırdı [7,33-34].

Həmin dövrdə hətta kifayət qədər möhkəm müdafiə qurğularına malik olan böyük yaşayış məntəqələrinin ətrafında, daha çox isə bu məntəqələrə gedən strateji əhəmiyyətli yollar üzərində də kiçik qalalar və keşikçi qüllələri kimi əlavə müdafiə qurğuları inşa edilirdi. Bu tikililərdə yerləşdirilən mühafizə dəstələri düşmənin ilkin zərbələrinin qarşısını alır, eyni zamanda əhalini hücum təhlükəsi barədə xəbərdar edirdi. Məhz bu məqsədlə Qarabağ xanlığında Qarqarçayın hər iki sahilindəki Əskəran qalaları inşa edilmişdir. Bu qalalar hər şeydən əvvəl, düşmənin Şuşaya düzənlikdən baş verə biləcək hücumlarının qarşısını almaq məqsədilə qurulmuşdur. Qalaların çayın sağ sahilində yerləşən hissəsi uzunluğu 250 metrə çatan ikiqat divardan ibarət idi. Çay daşı ilə hörülmüş qala divarının eni 2, hündürlüyü isə bəzi yerlərdə 9 metrə çatırdı. Əskəran qalaları çox əlverişli mövqeyə malik idi. Belə ki, Qarqarçayın sahilləri çox hündür və sıldırımlı olduğundan düşmən bu qalaları ələ keçirmədən Şuşaya doğru irəliləyə bilməzdi. Çayın hövzəsi ilə hərəkət etmək məcburiyyətində qalan düşmənin yolunu isə burada tikilmiş iki bürc kəsirdi [7,40]. Qarabağ tarixçisi Mirzə Camal yazırdı: “Əsgəranın hər

iki qalasıdır ki, müsəlman tarixilə 1203 (1788-1789)- cü ildə Şuşa qalasının üç ağaclığında Qarqarçayın keçdiyi iki dağın arasında tikilmişdir. Müharibə zamanı bu qalalarda azacıq piyada qoşun olsa, düşmən oradan keçib Şuşa qalasına gedə bilməz ”[9,162].

Qarabağ xanları Şuşada saray və imarətlərin tikintisinə böyük diqqət yetirirdilər. Qarabağ tarixçilərinin verdiyi məlumatlardan aydın olur ki, həm Pənahəli xan, həm də İbrahimxəlil xan Şuşada özləri və övladları üçün altı saray və imarət tikdirmişdi. Bu saraylardan ikisi – Pənahəli xana və Qaraböyük xanıma məxsus saraylar müasir dövrə qədər qalmışdır.



Sonuncu sarayın giriş qapısı üzərindəki yazıdan aydın olur ki, həmin saray 1768-ci ildə, yəni İbrahimxəlil xanın hakimiyyəti dövründə tikilmişdi. Şuşada tikilmiş xan sarayları özlərinin ölçüsünə, formasına və memarlıq üslubunun orijinallığına görə diqqəti cəlb edirdi. Onlar əksər hallarda şüşəli pəncərələrə malik olub, yonulmuş daşlardan tikilir və oyma naxışlarla bəzədilmiş taxta qapılarla tamamlanırdı. Sarayların qapı və pəncərələrinin hazırlanması, onlara tavan və taxtapuş vurulması ilə şəhərdə fəaliyyət göstərən 14 nəfər ağacişləmə ustası – dülgər, xarrat və nəccar məşğul olurdu. Saraylar, adətən, ikitaylı qapıları olan hündür divarlarla əhatə olunurdu [7,113-114].

XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Şuşada olan məhəllələrin formalaşması tarixi, əslində, şəhərin yaranması və inkişafı tarixini tam aydınlıqla əks etdirir. Şəhərin ən qədim məhəlləsi olan Aşağı məhəllə Pənahəli xanın hakimiyyəti dövründə salınmışdı. Sonralar şəhərin relyefinə uyğun olaraq, Aşağı məhəllə adlandırılan bu məhəllə yarandığı ilk dövrdə Təbrizli adlandırılmış və Qarabağ xanlığının ləğv edilməsinə qədər bu adla tanınmışdı.

Şuşanın sonralar Yuxarı məhəllə adlandırılan ikinci məhəlləsi İbrahimxəlil xanın hakimiyyəti dövründə salınmışdı. Şəhərsalma üçün əlverişli olan birinci məhəllənin yerindən

fərqli olaraq, ikinci məhəllənin salındığı ərazi o qədər də yararlı deyildi. Dağ yamacında yerləşən bu ərazi sıx meşə ilə örtülü olduğundan buranı yaşayış evlərinin tikilməsi üçün əlverişli hala salmaq lazım gəlmişdi. Daha doğrusu, tələbat yarandıqca ərazi meşələrdən təmizlənir və onun yerində məhəllələr salınırdı. Təxminən 1763-1806-cı illər ərzində Şuşada səkkiz yeni kiçik məhəllə salındı. Həmin məhəllələr aşağıdakılar idi: Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamamqabağı, Təzə. Şəhərin dağlıq ərazidə salınmış "Qazançalı" adlanan üçüncü böyük məhəlləsinin tikintisinə 1806-cı ildə Qarabağ xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra başlanmış və XIX əsr ərzində davam edilmişdi. On iki kiçik məhəllədən ibarət olan bu ərazi Şuşanın ən çox əhali yaşayan məhəlləsi olmuşdur. Şəhərin bu hissəsində Çiləbörd, Dərə, Bağlar və digər kiçik məhəllələr yerləşirdi [7,113-114].

İngilis səyyah və alimləri C.Morye və R.Burter Şuşanın qədimiliyi ilə bağlı dəyərli mülahizələr söyləmişlər. C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan, Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır"[2,36].

Şuşada inşa edilən bina və imarətlər şərq arxitekturası ənənələri əsasında tikilmişdir. Bütün imarətlərin eyvanları qibləyə baxır. Qaraböyük xanımın imarəti, Hacı Dadaşın imarəti, Hacı Qulunun imarəti, M.M.Nəvvabın mülkü, Nəcəfqulu Ağanın mülkü, C.Qaryağdı oğlunun mülkü, Zöhrabbəyovların mülkü və yüzlərlə bəy, ağa, ruhani və tacir mülkləri Şuşanın bəzəyi idi. Pənahəli xanın, İbrahimxəlil xanın, Mehralı bəyin, Mehdiqulu xanın, Xurşidbanu Natəvanın imarətləri və habelə divanxana kompleksi Qarabağ xanlığının silinməz və unudulmaz tarixi yaddaşıdır [1,277; 5,21].

Azərbaycanın digər şəhərləri kimi, Şuşada da məscid tikintisinə böyük diqqət göstərilirdi. Qarabağ tarixçiləri Mirzə Camalın və M.Baharlının verdikləri məlumatlardan aydın olur ki, burada ilk məscid Pənahəli xanın hakimiyyəti dövründə qamışdan tikilmiş, İbrahimxəlil xan isə hicri 1182-ci ildə (miladi 1768/69) həmin məscidin yerində daş və əhəngdən yeni Cümə məscidi tikdirmişdi [3,113]. XIX əsrdə Şuşada daha üç Cümə məscidi inşa edilmişdi. Şuşanın sonuncu – dördüncü Cümə məscidi 1883-cü ildə Gövhər ağanın vəsaiti hesabına Kərbəlayi Səfı xan Qarabaği tərəfindən tikilmişdir. Bəzi məlumatlara görə, bu məscid başqa bir məscidin, çox güman ki, İbrahimxəlil xanın tikdirdiyi məscidin bünövrəsi üzərində tikilmişdi. Daha çox Yuxarı Gövhər ağa məscidi kimi tanınan bu

məscid 1992-ci il erməni işğalına qədər yaxşı vəziyyətdə qalmışdı. İki böyük ibadət salonu, minarələri və ikinci mərtəbədə bir neçə otağı olan məscidin bəzək işlərinin görülməsində görkəmli rəssam Mir Möhsün Nəvvab da iştirak etmişdi. 1992-ci il erməni işğalı zamanı Şuşanın başqa memarlıq abidələri kimi, bu məscid də dağıdılaraq yararsız hala salınmışdı [7,118].

Şuşa məscidləri arasında Aşağı Gövhər ağa məscidinin də özünəməxsus yeri var. Cümə məscidi funksiyasını yerinə yetirən bu məscid 1874-1875-ci illərdə memar Kərbəlayi Səfi xan Qarabaği tərəfindən yenidən qurulmuşdur. Məscidin nəzdində mədrəsə də fəaliyyət göstərirdi. XIX əsrin ikinci yarısında Şuşada fəaliyyət göstərən məscidlərin ümumi sayı 16-ya çatırdı. Bunlardan üçü Cümə məscidi, qalanları isə məhəllə məscidi funksiyasını yerinə yetirirdi.

Məhəllə məscidləri hər bir küçənin əhalisinin sayına uyğun olaraq inşa edilmişdir. Bu məscidlər, adətən, məhəllə meydanlarının ən görkəmli yerlərində yerləşir, xarici görkəmlərinə görə çox sadə olur, yaşayış evlərini xatırladırdı. Lakin bu məscidlərin daxili quruluşu dini mərasimlərin həyata keçirilməsi üçün zəruri olan bütün tələblərə cavab verirdi. Məhəllə məscidləri içərisində Çuxur məhəllə məscidi özünün memarlıq üslubuna, tikintisinə və həcminə görə fərqlənirdi.

Bu məscidin qarşısında tikilən müqəddəs ocaqda (şuşalılar onu Saqqaxana adlandırırlar) Məhərrəm ayında və digər dini mərasimlər zamanı əhaliyə çay, gülab suyu və şirin şərbət paylanardı. Şuşanın yuxarı hissəsində inşa olunan Həzrət Abbas məscidi də yerli əhalinin və ətraf yerlərdən gələnlərin izdihamlı ziyarət yeri idi [5,23].

Şuşanın məhəllə məscidləri içərisində 1882-ci ildə memar Kərbəlayi Səfi xan tərəfindən tikilmiş Saatlı məscidi xüsusi seçilirdi. Daha möhtəşəm minarəsi olan bu məscidin içərisi Qurandan verilən kəlamlarla bəzədilmişdi [11,79].

Şuşanın su probleminin həll edilməsində xan qızı Xurşidbanu Natəvanın əvəzolunmaz xidməti olmuşdur. 1871-ci ildə onun vəsaiti hesabına Şuşanın yeddi kilometrliyində yerləşən Xəlfəli dağından saxsı borularla şəhərə su çəkildi və iki böyük bulaq tikildi. "Xan qızı bulağı" adlanan bu bulaqlardan biri 12 gözdən və səkkizguşəli çarhovuzdan ibarət olub, Xurşidbanu Natəvanın evi qarşısında tikilmişdi. "Şor bulaq" adlanan ikinci bulaq şəhərin Gəncə qapısı yaxınlığında tikilmiş və orijinal kompozisiyaya məxsus milli naxışlarla bəzədilmişdi. 1896-cı ildə isə Şuşaya ikinci su kəməri çəkildi. Bu kəmər şəhər sakinlərinin içməli suya olan tələbatını ödəməklə yanaşı, iyirmidən artıq küçədə daş çarhovuzların, bulaqların və yeni

hamamların tikilməsinə, eləcə də şəhərin daha da yaşıllaşmasına şərait yaratdı [7,114-115].

Şuşanın memarlıq abidələri içərisində karvansaralar xüsusi yer tuturdu. Baharlının verdiyi məlumatdan aydın olur ki, burada ilk karvansaraların tikintisi ilk yaşayış məhəlləsinin – Təbrizli məhəlləsinin meydana gəlməsi ilə eyni vaxta təsadüf edir. Bu dövrdə Şuşanın imkanlı adamlarından olmuş Uğurlu bəy, Hacı Əmiraslan bəy, Hacı Hüseyn bəy və başqaları Aşağı bazar və Meydan deyilən yerlərdə karvansaralar tikdirib istifadəyə vermişdilər. Bu karvansaralar Şuşanın bazar kompleksinin əsas tikililərindən hesab olunurdu. Şuşada karvansara tikintisi sonralar da davam etmişdi. XIX əsrin sonlarına yaxın burada artıq on karvansara fəaliyyət göstərirdi.

Şuşa Qarabağın inzibati mərkəzi olmaqla yanaşı, həm də böyük əhəmiyyətə malik iqtisadi mərkəzi idi. Şəhərin təbii-coğrafi şəraiti kənd təsərrüfatı ilə məşğul olmaq üçün əlverişli olmadığından, burada yaşayan əhalinin başlıca məşğuliyyətini ticarət və sənətkarlıq təşkil edirdi. Əsas ticarət və sənətkarlıq obyektləri şəhərin mərkəzi rolunu oynayan Aşağı bazar və Meydan adlandırılan ərazilərdə cəmləşmişdi. Baharlı yazır ki, Aşağı bazarda çoxlu ticarət dükanı və sənətkar emalatxanası ilə yanaşı, bir neçə karvansara və hamam da tikilib istifadəyə verilmişdi. Şuşada Bazarbaşı deyilən yerdən Şey-

tanbazara qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi Rastabazar adlandırılırdı. Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi onun magistralına bitişik iri bazar meydanı ilə tamamlanırdı. Şəhərin "Meydan" deyilən əsas meydanı Rastabazar küçəsi boyunca tikilmiş ibadətgah və ticarət tikililərindən, birmərtəbəli dükanlardan, ikimərtəbəli karvansaradan və qoşa minarəli yaraşıqlı Cümə məscidindən ibarət idi. XX əsrin əvvəllərində şəhərdə 1464 dükan qeydə alınmışdı ki, bunların da bazarlarla birlikdə illik ticarət dövriyyəsi 6 milyon rubla çatmışdı [12].

Artıq XIX əsrin ikinci yarısından etibarən Şuşa Azərbaycanın əsas sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdi. Şuşa Qafqazın çox dəbdəbəli şəhərlərindən biri hesab olunurdu. Qarabağ tacirlərinin və sənətkarlarının səsi təkcə Qafqaz və Yaxın Şərq ölkələrindən deyil, həmçinin dünyanın digər ölkələrindən gəlirdi. Bu əzəmətli şəhər təbiətinə, sənətkarlıq əsərlərinə və ticarət əlaqələrinə görə bir çox inkişaf etmiş şəhərlərlə bir sırada dayanırdı.

Şuşa Azərbaycanın ən böyük sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Şəhərdə ticarət əlaqələrinin inkişafı, müxtəlif sənət sahələrinin geniş vüsət alması onun şöhrətini uzaqlara yaymışdır. XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şu-

şa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Şuşa sənətkarları həm daxili tələbatı ödəmək, həm də digər Azərbaycan xanlıqlarına və xarici ölkələrə ixrac etmək üçün müxtəlif növ sənətkarlıq məhsulları istehsal edirdilər. XIX əsrin əvvəllərində Şuşada 50-dən artıq sənətkarlıq sahəsi üzrə ixtisaslaşmış sənətkarlar fəaliyyət göstərirdi.




Bu dövrdə Şuşada ayrı-ayrı sənətkarlıq sahələri ilə yanaşı, toxuculuq və xalçaçılıq da geniş yayılmışdı. Qarabağ xanlığında pambıqçılığın yüksək inkişaf səviyyəsinə çatması burada müxtəlif növ pambıq parçaların istehsalı üçün daha əlve-

rişli şərait yaradırdı. XVIII əsrin sonlarında Şuşada və onun ətrafında yerləşən yaşayış məntəqələrində pambıq parça istehsal edən minədək toxucu dəzgahı fəaliyyət göstərirdi. İstehsal edilən pambıq parçalar yerli əhalinin tələbatını ödəməklə yanaşı, Rusiya və İrana da ixrac edilirdi.

Şuşa Azərbaycanda xalça istehsalının da mühüm mərkəzlərindən biri idi. Qarabağ xalçaçılıq məktəbinə mənsub olan Şuşa xalçaları qrupu Azərbaycanın bədii sənətkarlığında mühüm yer tutur. Şuşada və onun ətrafında yerləşən Malıbəyli, Tuğ, Daşbulaq və b. kəndlərdə toxunmuş xalçalar hazırda bənzərsiz sənət nümunələri kimi dünyanın bir çox muzeylərində saxlanılır. Şuşa xalçaları özünün rəngarəngliyi, ornament müxtəlifliyinə və toxunma texnikasına görə Qarabağın digər yerlərində toxunan xalçalardan fərqlənirdi. 1908-ci ildə Qarabağın əsas xalçaçılıq mərkəzi sayılan Şuşaya ezam olunmuş Qafqaz Kustar Komitəsinin əməkdaşları yerli bəy və tacirlərə məxsus 600 xalçanı tədqiq etmiş və yalnız Şuşa xalçalarına məxsus 20 naxış müəyyənləşdirmişdilər. XIX əsrin sonlarında dünya bazarlarında Azərbaycan xalçalarına olan tələbatın artması Şuşada xalçaçılığın daha da inkişaf etməsinə səbəb oldu. Bu dövrdə şəhərdə hər il ümumi dəyəri 50 min rubla çatan xalça məmulatı istehsal edilirdi. Şuşa xalçaları özlərinin yüksək keyfiyyəti ilə də şöhrət qazanmışdı. Şuşa xalçaçı-

lıq məktəbi yalnız Azərbaycanda deyil, qonşu bölgələrdə də xalçaçılıq sənətinin inkişafına güclü təsir göstərirdi. Şuşa şəhəri bütün Cənubi Qafqazda xalça toxuculuğu sahəsində bədii zövqlərin formalaşmasında əvəzsiz rol oynayırdı. Zaman keçdikcə toxuculuğun, xüsusilə də xalçaçılıq sənətinin daha da inkişafı boyaqçılıq işinin də inkişafına güclü təkan verdi. Artıq XIX əsrin sonlarında Şuşada fəaliyyət göstərən boyaqxanaların sayı səkkizə çatmışdı. XX əsrin əvvəllərində Şuşa boyaqxanalarının illik istehsal gücü daha da artaraq 69500 rubl olmuşdur [7,86].

Şuşa Azərbaycanda qiymətli metallardan hazırlanan zinət əşyaları istehsalının da əsas mərkəzlərindən biri idi. Burada zadəganlar çox olduğundan zərgərlik məmulatlarına tələbat da böyük idi. XIX əsrin əvvəllərində Şuşada bu sahə üzrə tələbatın ödənilməsi ilə on nəfər zərgər məşğul olduğu halda, əsrin sonunda onların sayı artıb 78 nəfərə çatmışdır.

Ümumiyyətlə, Qarabağda mis, qızıl, gümüş və qalaydan istifadə etməklə, müxtəlif növ zərgərlik məmulatları istehsal edilmişdir. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş qiymətli metallardan düzəldilmiş üzük, bilərzik, sırğa, düymə və s. kimi bəzək əşyaları zərifliyi və gözəlliyi ilə seçilir.

Təsadüfi deyil ki, Pənahəli xan məhz Şuşada zərbxana tikdirmiş, “pənahabadi” adı ilə bir misqal vəznində gümüşdən

pul sikkəsi vurdurmuşdur. Sikkənin bir tərəfində "Pənahabad", o biri tərəfində isə "La ilahə illəllah, Muhəmmədən rəsulullah" (Allahdan başqa Allah yoxdur, Məhəmməd onun rəsuludur) sözləri yazılmışdır [8,23]. Qarabağ xanlığının sikkələri pənahabadi, pənahabadinin yarısı və xırda mis sikkələr kəsilirdi. Sikkələr bütün Azərbaycan xanlıqlarında və İranda başqa sikkələrlə bərabər işlənirdi. Pənahabadi xanlığın hüdudlarından çox kənardakı xəzinələrdə dəfələrlə aşkar olunmuşdur. Bu, sikkənin etibarlılığını və sabitliyini, Qarabağ tacirlərinin fəallığını sübut edir. Sikkələrin kəsilməsi Qarabağın Rusiyanın tərkibinə daxil olmasından sonra da davam edirdi və yalnız 1822-ci ildə, xanlığın ləğvindən sonra dayandırıldı.




## ŞUŞA – AZƏRBAYCANIN ƏVƏZOLUNMAZ MƏDƏNİYYƏT MƏRKƏZİ

Şuşa şəhəri yarandığı gündən "Azərbaycanın milli mədəniyyət xəzinəsi", "Azərbaycan musiqisinin beşiyi", "Qafqazın konservatoriyası" kimi şöhrət qazanmışdır. Görkəmli musiqiçi B.S.Vinoqradov Şuşanın Azərbaycanın musiqi mədəniyyəti tarixində oynadığı roldan bəhs edərkən yazırdı: "Şuşalı musiqiçilər Azərbaycanın musiqi tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin digər ölkələrində də təmsil etmişlər". Böyük Azərbaycan şairi Səməd Vurğun da Şuşanın

Azərbaycanın mədəniyyəti tarixində mühüm rol oynadığını xüsusi olaraq qeyd edirdi. O yazırdı: "Azərbaycanın, demək olar ki, bütün məşhur musiqiçi və müğənniləri Şuşanın yetirmələridir. Təsadüfi deyil ki, Şuşanı "musiqi və poeziyanın beşiyi" adlandırırlar". Azərbaycan xanəndəlik sənəti məktəbinin ən görkəmli nümayəndələri olan Xarrat Qulu, Əbdül Bağı Zülalov, Hacı Hüsü, Məşədi Məmməd Fərzəliyev, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan Şuşinski və başqaları Şuşada doğulub sənətkar kimi püxtələşmişlər. XIX əsr Şuşa musiqi məktəbinin ən görkəmli nümayəndələrindən biri olmuş Hacı Hüsü ifaçılıq sənətində yeni mərhələnin başlanğıcını qoymuşdur. Şuşa musiqi ifaçılıq sənətinin yüksək inkişaf səviyyəsinə çatmasında Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan), Məşədi Cəmil Əmiraslan oğlu Əmirov (məşhur bəstəkar Fikrət Əmirovun atası), Qurban Pirimov mühüm rol oynamışlar. Sadıqcan tərəfindən təkmilləşdirilmiş tar nümunələrindən bütün Cənubi Qafqazda, Orta Asiyada və Dağıstanda geniş istifadə olunurdu [7,101].

Görkəmli opera müğənnisi və xalq mahnılarının mahir ifaçısı Bülbül (1897-1961) də Şuşa musiqi məktəbinin yetirməsidir. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli (1885-1948) də Şuşada anadan olmuş, musiqi yaradıcılığına bu şəhərdə başlamışdı. Bəstəkarın bütün Şərqdə ilk opera olan

“Leyli və Məcnun” operasının yaranmasında Şuşanın musiqi həyatı həlledici rol oynamışdır.




Heyrətamiz gözəlliyi ilə hamını heyran edən Şuşa Azərbaycan ədəbiyyatına bir çox görkəmli şair, yazıçı və dramaturq bəxş etmişdir. Azərbaycan realist ədəbiyyatının banilərindən biri olan Molla Pənah Vaqif (1717-1797) Şuşada yaşayıb-yaratmış, özünün ölməz poeziyası ilə müasir Azərbaycan ədəbi dilinin formalaşmasında mühüm rol oynamışdır. Onun qəzəl və qoşmaları dillər əzbəri idi. Vaqif həm də görkəmli dövlət xadimi idi, qarabağlı İbrahimxəlil xanın vəziri olmuş-

dur. Azərbaycanın digər görkəmli şairi Qasım bəy Zakir (1784-1854) Şuşada anadan olmuş, ilk təhsilini burada almışdır o, ömrünün sonlarında Şuşaya dönmüş və burada da vəfat etmişdir. Qasım bəy Zakir Azərbaycan poeziyasında tənqidi realizmin və satirik janrın banilərindən biri hesab edilir.

Şuşa özünün ədəbi məclisləri ilə də məşhur idi. 1864-cü ildə burada Hacı Abbas Agahinin başçılığı ilə "Məclisi-üns" təşkil olunmuşdur. Sıralarında otuz nəfərə qədər şairi birləşdirən bu məclis 1872-ci ildən Xurşidbanu Natəvanın evində qurulurdu. Şuşada 1870-ci ildə təşkil olunmuş ikinci məclis "Məclisi-fəramuşan" adlanırdı. XX əsrin əvvəllərinə qədər fəaliyyət göstərmiş bu məclisin rəhbəri alim və təzkirəçi Mir Möhsün Nəvvab olmuşdur. Bu məclislərdə şairlər öz şeirləri ilə çıxış edir, muğamlar ifa olunur, fəlsəfə, tarix, məntiq, astronomiyaya dair söhbətlər aparılırdı. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri olan Süleyman Sani Axundov və Yusif Vəzir Çəmənzəminlinin həyat və yaradıcılıqları Şuşa ilə bağlı olmuşdur. Şuşanın yetirməsi olan yazıçılar arasında Yusif Vəzir Çəmənzəminli bu şəhərin təsvirini ən çox vermiş yazıçı kimi tanınır. Onun "Həyatımın iyirmi ili" və "Bir gəncin dəftəri" adlı romanlarında Şuşanın təkrarolunmaz təbiətinin, ictimai həyatının, adət və ənənələrinin müfəssəl təsviri verilmişdir. Yazıçının "Qan içində" adlı sonuncu romanında XVIII

əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Qarabağ xanlığında baş vermiş hadisələr əks olunmuşdur [7,103].

Şuşa çoxlu sayda rəssamların və tətbiqi sənət ustalarının vətəni olmuşdur. Azərbaycanın görkəmli şairi, rəssamı və bədii tikmə ustası Xurşidbanu Natəvanın (1830-1897) həyat və yaradıcılığı Şuşa ilə qırılmaz surətdə bağlıdır. Onun yaratmış olduğu rəsmlər, miniatürlər və tətbiqi sənət nümunələri hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyinin ekspozisiyalarını bəzəyir. Şuşanın yetirdiyi görkəmli şəxsiyyətlərdən biri olan Mir Möhsün Nəvvab (1833-1918) öz dövrünün tanınmış xəttatı, rəssamı, şair və musiqişünası kimi şöhrət qazanmışdır. Onun hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan "Teymurləngin portreti", "Çiçəklər" və "Quşlar" kimi rəsm əsərlərində dərin bir həyatilik hiss olunur. Şuşada müxtəlif binaların divarlarına çəkdiyi rəsmlər və naxışlar öz təravətini bu günə qədər itirməmişdir. Nəvvab həm də Azərbaycan kitab tərtibatı sənətinin nadir nümunələrini yaratmışdır.

Şuşa həm də muzeylər şəhəri kimi şöhrət qazanmışdı. Şuşalı rəssamların, tətbiqi sənət ustalarının yaratdıqları sənət incilərinin bir qismi şəhərdə təşkil edilmiş müxtəlif muzeylərdə nümayiş etdirilirdi. On salondan ibarət olan Şuşa Rəsm Qalereyasında 200-ə yaxın nadir təsviri sənət nümunəsi sax-

lanılırdı. Qalereyanın qızıl fondunu Mir Möhsün Nəvvabın öz kitablarına çəkdiyi illüstrasiyalar təşkil edirdi. Mehmandarovların yaşayış kompleksində yerləşən Xalça Muzeyində 300-dən çox nadir xalça nümayiş etdirilirdi. Bundan başqa, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlıq Muzeyi, Dərman Bitkiləri Muzeyi, Üzeyir Hacıbəyovun, Xurşidbanu Natəvanın və Mir Möhsün Nəvvabın ev-muzeyləri fəaliyyət göstərirdi. Bütün bu muzeylər 1992-ci ilin mayında Şuşanı işğal edən erməni vandallar tərəfindən dağıdılaraq yerlə yeksan edilmiş, eksponatları qarət olunmuşdur[7,108].



# ŞUŞANIN İŞĞALI

Şuşa qalası tarixən Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. XIX əsrin əvvəllərində – 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahimxəlil xanla Rusiyanın Qafqaz qoşunlarının baş komandanı general Sisianov arasında Kürəkçay müqaviləsi (“Andlı öhdəlik”) imzalandı [14]. Bununla da Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil oldu və dərhal Qarabağda çarizmin mövqeyini möhkəmlətmək üçün ermənilərin bura köçürülməsinə başlandı. Bu fakt onu göstərir ki, Rusiya hökuməti tərəfindən ermənilərin Qarabağa köçürülməsi

xüsusi məqsədlə edilirdi. Gəlmə ermənilərin kompakt şəkildə yaşamasını təmin etməklə strateji niyyət güdülürdü.



Beləliklə, çar Rusiyası bütövlükdə Azərbaycanda, o cümlədən Qarabağ bölgəsində ermənilər üçün geniş imkanlar yaratdı. Ermənilər çox keçmədən "Böyük Ermənistan" ideyasının reallaşdırılması uğrunda açıq mübarizəyə başladılar. Həmin ideyanın tərkib hissələrindən biri də Azərbaycanın Qara-

bağ, İrəvan, Naxçıvan və digər ərazilərini ələ keçirməkdən ibarət idi [13].

Burada, ermənilərin köçürülüb məskunlaşdırılması ilə saylarının mexaniki surətdə artırılması təmin edilirdi. Onların iqtisadi cəhətdən möhkəmləndirilməsi paralel surətdə həyata keçirilirdi. Bununla da, ermənilər çarizmin hərtərəfli dəstəyi nəticəsində Qarabağın iqtisadi həyatında da möhkəmlənə bildilər. Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycan tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı status verilmiş və nəticədə Azərbaycanın inzibati-ərazi bölgüsü kobudcasına pozulmuşdu. 1923-cü ildə qəbul edilən bir qərarla Şuşa, Cavanşir və Qubadlı qəzalarının əraziləri bölünüb DQMV yaradıldı. Bu hadisə təkcə Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması deyil, həm də ermənilərin ölkəmizə qarşı gələcək ərazi iddiaları üçün bir vasitə olmuşdur. Muxtariyyətin yaradılması haqqında qəbul edilən dekretdə vilayət mərkəzinin Xankəndi olması göstərilsə də, az sonra 1923-cü il sentyabrın 18-də vilayət partiya komitəsinin qərarı ilə Xankəndinin adı dəyişdirilərək bolşevik maskası geyinmiş, 1918-ci il martında azərbaycanlılara qarşı soyqırımın rəhbəri olan S.Şaumyanın şərəfinə “Stepanakert” adlandırıldı. Bununla da, Qarabağda

Azərbaycanın tarixi yerlərinin, mahal, rayon və kənd adlarının dəyişdirilməsinin təməli qoyuldu[12].



XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində hadisələr getdikcə daha da mürəkkəbləşdi və Ermənistan Respublikası Azərbaycan ərazilərinə hərbi qüvvə yeridərək açıq təcavüzə başladı. 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan silahlı qüvvələri bir-birinin ardınca Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi. 1992-ci il mayın 8-də Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə Ermənistan ordusu tərəfindən bütün Qarabağ zəbt olundu. Nəticədə 289 kvad-

rat kilometr ərazisi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğrunda döyüşlərdə 195 nəfər şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər isə itkin düşdü.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq Sağlamlıq Məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır[2, 38].

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənahəli xanın sarayı və kitabxanası, İbrahimxəlil xanın bürcü və qəsri, Xan sarayı və karvansara, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansara, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidlə-

ri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunələri erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.



## ŞUŞANIN İŞĞALDAN AZAD EDİLMƏSİ

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirildi. Xalqımız bütünlüklə Müzəffər Ali Baş Komandanın ətrafında birləşdi. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri,

eləcə də bir sıra mühüm əhəmiyyətli şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 rayon, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl rayonu və rayonun 90 kəndi, Füzuli ra-

yonu və rayonun 53 kəndi, Zəngilan rayonu, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı rayonu və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şüküratazyüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.



2020-ci il noyabrın 8-i tariximizə şanlı gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qa-

rabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu.

Alınmaz qala olan və sərt relyefə malik Şuşanın işğaldan azad edilməsi isə dünyanın hərbi ekspertlərini belə heyrətləndirir.

Fransanın "Le Monde" nəşri Şuşa uğrunda döyüşlərdə erməni qüvvələrinin darmadağın olduğunu yazmışdı. Rusiya mediası isə yazıb: "Belə döyüş, dövlət, vətən sevgisi görən olubmu? Demək çətindir! Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan, tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralını, nə şəhidi əldən buraxırdılar. Nəfəs almadan Şuşaya çıxdılar..."Ukraynalı hərbi ekspert Aleksey Arestoviç isə vurğulayıb ki, "Azərbaycan Şuşanı azad etdi. Piyada döyüşləri ilə, sursatları üstündə daşıya-daşıya, duman altında, pis hava şəraitində dağları yararaq qaytardı. PUA-larsız, tanksız, artilleriyasız şəhər aldılar"[15].



## ŞUŞANIN BƏRPASI

Şəhər işğaldan azad edildikdən dərhal sonra onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin inventarizasiyası aparılmış və bərpa işlərinə başlanılmışdır. Şuşanın azad olunması və şəhərin yenidən bərpası, Azərbaycan mədəniyyətində öz layiqli yerini alması Ulu Öndərin ən böyük arzusu idi.

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev son dəfə 39 il bundan əvvəl ümummilli lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zamanı gəldiyini diqqətə çatdıraraq bildirdi

ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişdir və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik"[17].

Şuşaya səfəri zamanı Prezident İlham Əliyev bildirib ki, Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev-muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. O qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Prezidentin bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edib ki, ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmişlər. 28 il ərzində buna çalışmış, lakin nail ola bilməmişlər. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirilmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi [18].

Azərbaycan Respublikasının Prezidenti bəyan edib ki, Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir: "Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaqdır!" [16].

# ƏDƏBİYYAT SİYAHISI

1. M.Baharlı. Əhvalati Qarabağ ,Qarabağnamələr. II kitab, Bakı, 1991

2. Əhmədov E, Şuşa: Tarixi, siyasi, iqtisadi, strateji və mədəni əhəmiyyətə malik şəhər //Geo Strategiya //№ 3(09). Bakı, 2012

3. Əlizadə Həsən İfxa, Şuşa şəhərinin tarixi, Qarabağnamələr. Üçüncü kitab, Bakı, 2006

4. Fəna Mirzə Rəhim , Tarixi-Cədidi- Garabağ , Qarabağnamələr. I I kitab,Bakı, 2006

5. Hüseynov Y., Şuşa şəhərinin tarixi, Bakı, 2013

6. Jan Gevr. Xacə şah,Tarixi roman, Bakı,2012

7. Mahmudov Y., Mustafayev C., Şuşa. Pənahabad, Bakı, 2012

8. Qarabaği Mirzə Yusif, Tarixi – Şərif , Qarabağnamələr. I I kitab, Bakı, 2006

9. Qarabaği Mirzə Camal Cavanşir, Qarabağ tarixi, Qarabağnamələr, I kitab, Bakı, 2006

10. Xəzani Mir Mehdi, Kitabe-tarixi-Qarabağ, Qarabağnamələr, I I kitab, Bakı, 2006

11. Авалов Э. В. Архитектура города Шуши и проблемы сохранения его исторического облика, Баку, 1977

12. Əhmədov E., https://www.virtualkarabakh.az/az/post-item/52/2882/prezident-ilham-eliyevin-qetiyyetli-ve-prinsipial-movqeyi-susa-zeferinii-sertlendirdi.html

13. http://karabakh.az/news/613

14. https://files.preslib.az/site/karabakh/gl1.pdf

15. https://ikisahil.az/post/182500-shushanin-ishgaldan-azad-edilmesi-herb-tarixinde-en-mukemmel-taktiki-doyushdur

16. https://president.az/az/articles/view/50184

17. https://president.az/az/articles/view/50226/print

18. https://president.az/az/articles/view/50399/print

19. https://www.virtualkarabakh.az/az/post-item/52/2882/prezident-ilham-eliyevin-qetiyyetli-ve-prinsipial-movqeyi-susa-zeferinii-sertlendirdi.html

Rumpel MMC tərəfindən hazır
diapozitivlərdən istifadə olunmaqla
300 tirajla çap edilmişdir.

Ünvan: Bakı şəh., Azadlıq pr., 139